DOI: https://doi.org/10.36719/2663-4619/113/139-142

**Elçin Səfərov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
https://orcid.org/0009-0000-1928-593X
elcin.seferov.2002@gmail.com

# Sənaye məhəllələrinin yaradılmasında beynəlxalq təcrübə

**Xülasə**

Bu tədqiqat iqtisadiyyatın şaxələndirilməsi və regional inkişafın stimullaşdırılması baxımından əhəmiyyətli nümunələr təqdim edir. Aparılan təcrübələr, əsasən, müasir texnologiyaların tətbiqi, innovativ idarəetmə modelləri və dövlət-özəl sektor əməkdaşlığı vasitəsilə yüksək məhsuldarlığa nail olunmasını ehtiva edir. Sənaye məhəllələrinin planlaşdırılmasında coğrafi yerləşmə, infrastruktur təminatı və resursların səmərəli bölgüsü kimi amillərin rolu mühüm hesab olunur. Beynəlxalq təcrübədə Çin, Almaniya və Cənubi Koreya kimi ölkələrin bu sahədə qabaqcıl yanaşmaları xüsusilə diqqətəlayiqdir. Bu təcrübələrin tətbiqi sənaye istehsalının artırılması ilə yanaşı, innovasiyaların təşviq olunmasına və yeni iş yerlərinin açılmasına töhfə verir. Sənaye məhəllələrinin inkişafında ekoloji dayanıqlıq və sosial məsuliyyətin nəzərə alınması vacib şərtlərdən biridir. Məqalədə bu təcrübələrin Azərbaycan şəraitində tətbiqi imkanları təhlil edilərək, regional inkişaf strategiyalarına töhfə verə biləcək tövsiyələr təqdim olunur. Nəticədə, beynəlxalq təcrübə ilə inteqrasiya olunmuş yanaşmaların ölkənin iqtisadi inkişafına təsiri geniş müzakirə edilir.

***Açar sözlər:*** *sənaye, məhəllə, innovativ, inkişaf, sosial*

**Elchin Safarov**
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0000-1928-593X
elcin.seferov.2002@gmail.com

# International Experience in Creating Industrial Districts

**Abstract**

This research presents significant examples in terms of economic diversification and the stimulation of regional development. The conducted studies primarily encompass achieving high productivity through the application of modern technologies, innovative management models, and public-private sector cooperation. In the planning of industrial zones, factors such as geographical location, infrastructure provision, and the efficient allocation of resources are considered crucial. International experience highlights the advanced approaches of countries such as China, Germany, and South Korea in this field. The implementation of these practices not only contributes to increasing industrial production but also promotes innovation and the creation of new job opportunities. Ensuring environmental sustainability and social responsibility is one of the essential conditions for the development of industrial zones. This article analyzes the applicability of these experiences in the context of Azerbaijan and provides recommendations that can contribute to regional development strategies. Consequently, the impact of approaches integrated with international experience on the country's economic development is extensively discussed.

***Keywords:*** *industry, zone, innovative, development, social*

## Giriş

Dünyada sənaye məhəllələrinin yaradılması prosesi iqtisadi inkişafın, innovasiya fəaliyyətinin təşviqi və regionların tarazlı inkişafı baxımından müasir iqtisadiyyatın mühüm komponentlərindən biri kimi qiymətləndirilir. Qloballaşma və rəqabət mühitinin intensivləşməsi, sənaye məhəllələrinin təkcə iqtisadi deyil, həm də sosial və ekoloji aspektləri ilə önəmli təsir mexanizmlərinə malik oldu-

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

ğunu nümayiş etdirir. Bu baxımdan, Azərbaycanda sənaye məhəllələrinin yaradılması, ölkənin qeyri-neft sektorunun inkişafını dəstəkləmək və regionların iqtisadi potensialını tam şəkildə istifadə etmək məqsədini güdür (Əliyeva, 2024, s. 6).

Hazırkı dövrdə dünya təcrübəsindən bəhrələnərək texnologiyaların ötürülməsi, istehsalın modernləşdirilməsi və əmək bazarının inkişafı kimi mühüm məsələlər sənaye məhəllələrinin konseptual əsaslarını təşkil edir. Beynəlxalq təcrübələr göstərir ki, sənaye məhəllələrinin yaradılması iqtisadiyyatın şaxələndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı və regional iqtisadi aktivliyin artırılması üçün səmərəli vasitədir (Qəhrəmanov, 2019, s. 6).

Azərbaycanda sənaye məhəllələrinin formalaşması istiqamətində həyata keçirilən siyasət bu sahədə milli iqtisadiyyatın dinamik inkişafına təkan vermək məqsədi güdür. Prezident İlham Əliyevin 2014-cü ildə "Sənaye ili" elan etməsi və sənaye məhəllələrinin yaradılmasına dair fərmanlar bu istiqamətdə qətiyyətli addımların atıldığını göstərir. Lakin bu sahədə olan bəzi problemlər, xüsusilə infrastrukturun qeyri-kafi səviyyəsi və idarəetmə mexanizmlərinin tam formalaşmaması, beynəlxalq təcrübənin daha geniş tətbiq edilməsini tələb edir (Vəliyev, 2018).

Tədqiqatın məqsədi beynəlxalq təcrübəni nəzərə alaraq Azərbaycanda sənaye məhəllələrinin yaradılması və inkişafında mövcud problemləri araşdırmaq, onların həlli yollarını təklif etməkdən ibarətdir. Bu çərçivədə sənaye məhəllələrinin təşkilinin nəzəri-metodoloji əsasları, onların iqtisadi və sosial təsirləri və beynəlxalq təcrübələrin tətbiqinin perspektivləri təhlil olunur.

**Tədqiqat**

Sənaye məhəllələrinin yaradılması və inkişaf etdirilməsi müasir dövr iqtisadiyyatında strateji əhəmiyyət kəsb etsə də, bu sahədə bir sıra nəzəri və praktiki məsələlər öz həllini tapmamışdır. Dünyada sənaye məhəllələrinin təşkili sahəsində geniş təcrübələr mövcud olsa da, bu təcrübələrin milli şəraitə uyğun tətbiqi, xüsusən də Azərbaycanın sosial-iqtisadi və coğrafi xüsusiyyətlərinə inteqrasiya olunması kifayət qədər tədqiq edilməmişdir. Azərbaycanda mövcud sənaye məhəllələrinin inkişafı ilə bağlı təşkilati və idarəetmə problemləri, onların sosial-iqtisadi effektlərinin dəqiq qiymətləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məsələləri aktual olaraq qalır (Nam, 2017).

Müxtəlif sənaye məhəllələrinin fəaliyyəti üçün yaradılan infrastruktur, xüsusən kiçik və orta sahibkarların dayanıqlı inkişafını dəstəkləmək üçün nəzərdə tutulsa da, bu sahədəki resursların qeyri-səmərəli bölgüsü, koordinasiya çatışmazlığı və regional fərqliliklər səbəbindən problemlər yaranır (Sarı, 2018). Bundan başqa, sənaye məhəllələrinin yaradılması zamanı innovasiyaların tətbiqi və ətraf mühitin qorunması ilə bağlı çağırışlar hələ də yetərincə həll edilməmişdir (Əliyeva, 2024).

Tədqiqatın əsas məqsədi beynəlxalq təcrübələri öyrənərək Azərbaycanda sənaye məhəllələrinin təşkili və inkişafının nəzəri və praktiki əsaslarını formalaşdırmaq, həmçinin bu sahədə mövcud problemləri aşkar etmək və onların həlli yollarını təklif etməkdən ibarətdir. Problemin həlli üçün sənaye məhəllələrinin təşkili mexanizmlərinin optimallaşdırılması, müasir texnologiyaların tətbiqi və idarəetmə proseslərinin təkmilləşdirilməsi ilə bağlı konkret təkliflər hazırlanacaqdır.

Beləliklə, tədqiqatın mövzusu yalnız Azərbaycanın iqtisadi inkişafı üçün deyil, həm də beynəlxalq səviyyədə rəqabətqabiliyyətli sənaye sahələrinin formalaşdırılması üçün zəruri olan yanaşmaları əhatə etməklə xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə elmi yanaşmaların inkişaf etdirilməsi və təcrübələrin yerli şəraitə uyğun tətbiqi sənaye məhəllələrinin sosial-iqtisadi faydalarının maksimuma çatdırılmasına töhfə verəcək (Vəliyev, 2018).

Sənaye məhəllələrinin səmərəli təşkili və idarə edilməsi üçün beynəlxalq təcrübələrdən öyrənilən yanaşmalar Azərbaycan iqtisadiyyatında bu konsepsiyanın inkişaf etdirilməsi üçün mühüm istiqamətlər təklif edir. Beynəlxalq təcrübələr göstərir ki, sənaye məhəllələrinin effektiv fəaliyyəti üçün güclü institusional çərçivənin yaradılması, infrastrukturların inkişaf etdirilməsi və innovasiya yönümlü yanaşmaların tətbiqi əsas amillərdən biri hesab olunur. Bununla yanaşı, belə təcrübələrin yerli şəraitə adaptasiya olunması və sosial-iqtisadi mühitə uyğunlaşdırılması zərurəti yaranır.

Məsələn, Cənubi Koreyada sənaye məhəllələrinin yaradılması iqtisadiyyatın sürətli inkişafına mühüm təkan vermişdir. Bu ölkədə "Techno Parks" adlanan innovasiya mərkəzləri xüsusi statusa malik sənaye zonaları ilə birgə fəaliyyət göstərir ki, bu da kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırır. Cənubi Koreyanın Daegu şəhərində yerləşən texnopark, istehsalın rəqəmsallaşdırıl-

ması, avtomatlaşdırılması və süni intellekt texnologiyalarının tətbiqi üzrə mühüm bir model olmuşdur. Bu texnoparkın infrastrukturu elmi-tədqiqat institutları, universitetlər və sənaye müəssisələrinin sıx əməkdaşlığını təmin etmək üçün qurulmuş, bu da texnologiyaların transferini və yeni məhsulların istehsalını daha sürətli və səmərəli şəkildə həyata keçirmişdir. Bu yanaşma göstərir ki, sənaye məhəllələrinin inkişafında texnoloji və innovativ yanaşmalar əsas rol oynayır və müvafiq sahələrin dayanıqlı inkişafını təmin edir (Nam, 2017).

Almaniyada sənaye məhəllələrinin təşkili zamanı “Cluster” modeli tətbiq edilmişdir ki, bu da regional ixtisaslaşma və müxtəlif sektorlar arasında əməkdaşlığın inkişafını stimullaşdırır. Bavariya regionundakı “Aerospace Cluster” nümunəsi, aerokosmik texnologiyalar sahəsində fəaliyyət göstərən müəssisələri bir araya gətirərək resursların optimal istifadəsini təmin etmişdir. Bu model çərçivəsində elmi-tədqiqat fəaliyyətləri ilə məşğul olan universitetlər, dövlət qurumları və özəl sektor arasında sıx əlaqələr qurulmuşdur. Sənaye məhəllələrində fəaliyyət göstərən müəssisələr üçün xüsusi vergi güzəştləri, kreditlər və subsidiyalar tətbiq edilmiş, bu da onların fəaliyyətini daha da gücləndirmişdir. Həmçinin, ekoloji dayanıqlıq məsələsi xüsusi diqqətdə saxlanılmış, sənaye proseslərinin ətraf mühitə mənfi təsirini minimuma endirmək üçün müasir texnologiyaların tətbiqinə üstünlük verilmişdir (Kyriazis, Metaxas, 2023).

Çin Xalq Respublikasında isə sənaye məhəllələrinin yaradılması iqtisadiyyatın strukturunun şaxələndirilməsi və dünya bazarında rəqabətqabiliyyətli məhsulların istehsalını təmin etmək məqsədilə həyata keçirilmişdir. Çindəki sənaye məhəllələri “Special Economic Zones” (Xüsusi İqtisadi Zonalar) adlanır və bu zonalar iqtisadi islahatların həyata keçirildiyi mühüm ərazilər hesab edilir. Shenzhen zonası bu sahədə dünya miqyasında tanınan uğurlu nümunələrdən biridir. Burada texnologiya sahəsində fəaliyyət göstərən minlərlə müəssisə yerləşmiş, xarici investisiyaların cəlb edilməsi üçün xüsusi güzəştlər tətbiq olunmuşdur. Shenzhen-də yerləşən müəssisələrə dövlət tərəfindən vergi güzəştləri, gömrük rüsumlarının azaldılması və yüksək texnologiyalı məhsulların istehsalı üçün maliyyə dəstəyi verilmişdir. Bu yanaşma nəticəsində Shenzhen qısa müddət ərzində yüksək texnologiyalı məhsulların istehsal mərkəzinə çevrilmişdir (Wu, Liu & Huang, 2021).

Kiçir və orta müəssisələrin (KOM) iqtisadiyyatdakı rolu yalnız inkişaf etmiş ölkələrdə deyil, həm də inkişaf etməkdə olan dövlətlərdə əsas diqqət mərkəzində olmuşdur. Bu müəssisələr, istihdam yaratma potensialı, iqtisadi dayanıqlılığın təmin edilməsi və yerli bazarlara dinamik təsiri ilə xüsusi əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, dövlət tərəfindən təqdim olunan dəstək və təşviqlərə baxmayaraq, KOM-ların əksəriyyəti bu imkanlardan səmərəli istifadə edə bilmir. Bu vəziyyət, bu müəssisələrin inkişafına mane olan çətinliklərin mövcudluğunu göstərir və onların həlli üçün daha effektiv yanaşmaların tətbiqini zəruri edir. Əlavə olaraq, beynəlxalq təcrübə göstərir ki, KOM-ların rəqabət qabiliyyətinin artırılması üçün innovasiya fəaliyyətlərinin təşviqi və texnologiyanın tətbiqi vacib amillərdəndir (Abacı, 2015).

Azərbaycan şəraitində bu təcrübələrin tətbiqi üçün ilk növbədə mövcud problemlərin həlli istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir. İlk növbədə, sənaye məhəllələrinin yaradılması üçün uyğun ərazilərin seçilməsi və həmin ərazilərdə müasir infrastrukturların qurulması zərurəti mövcuddur. Bu prosesdə dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi, xüsusilə kiçik və orta sahibkarların iştirakını stimullaşdırmaq üçün hüquqi və maliyyə dəstəyinin artırılması vacibdir (Arslan, 2018). Bundan əlavə, sənaye məhəllələrində fəaliyyət göstərəcək müəssisələr üçün xüsusi güzəştlərin tətbiqi, həmçinin onların beynəlxalq ticarət əlaqələrinə inteqrasiyasının təmin olunması istiqamətində işlər görülməlidir.

Həmçinin, sənaye məhəllələrinin fəaliyyətinin ekoloji dayanıqlıq prinsiplərinə əsaslanması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, beynəlxalq təcrübədən yararlanaraq sənaye məhəllələrində yaşıl texnologiyaların tətbiqi, tullantıların minimuma endirilməsi və təkrar emal sistemlərinin qurulması ilə bağlı tədbirlər həyata keçirilməlidir. İqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin qorunması sahəsində Cənubi Koreya və Almaniya təcrübələri Azərbaycan üçün bir model olacaq.

Son olaraq, sənaye məhəllələrinin inkişafını təmin etmək üçün bu sahədə elmi tədqiqatların və təhsil proqramlarının inkişaf etdirilməsi vacibdir. Bunun üçün universitetlər və elmi-tədqiqat institutlarının sənaye məhəllələri ilə əməkdaşlığı gücləndirilməli, yeni texnologiyaların tətbiqi üçün elmi potensialdan maksimum istifadə edilməlidir. Bu yanaşma beynəlxalq təcrübələrin uğurla yerli şəraitə

inteqrasiyasını təmin edərək sənaye məhəllələrinin uzunmüddətli və dayanıqlı inkişafını təmin edəcək.

## Nəticə

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sənaye məhəllələrinin inkişafında beynəlxalq təcrübələrdən, xüsusilə Almaniyanın "Cluster" modeli, Cənubi Koreyanın "Techno Parks" sistemi və Çinin xüsusi iqtisadi zonalarından öyrənilən yanaşmalar Azərbaycanın iqtisadiyyatında innovativ və dayanıqlı həllərin tətbiqi üçün mühüm baza yaradır. Bu yanaşmaların tətbiqi yalnız iqtisadi səmərəliliyi artırmaqla kifayətlənməyib, həm də regional inkişaf strategiyalarının reallaşdırılmasına dəstək olmuşdur.

Coğrafi yerləşmə, infrastruktur təminatı və ekoloji dayanıqlılıq prinsipləri sənaye məhəllələrinin səmərəli fəaliyyətinin təmin edilməsi üçün əsas şərtlərdən biri kimi qəbul olunmuşdur. İnnovasiya yönümlü idarəetmə və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi milli iqtisadiyyatın şaxələndirilməsinə və regional inkişafın sürətlənməsinə töhfə verəcək.

Tədqiqat zamanı yaşıl texnologiyaların tətbiqinin və tullantıların minimuma endirilməsinin əhəmiyyəti xüsusi vurğulanmışdır. Bununla yanaşı, sənaye məhəllələri ilə elmi-tədqiqat institutlarının inteqrasiyası innovasiya potensialını artırmaq və rəqabət qabiliyyətini gücləndirmək üçün vacib bir amil kimi qiymətləndirilmişdir.

Təklif olunan yanaşmalar Azərbaycanın sənaye sektorunun beynəlxalq standartlara uyğunlaşdırılmasına və iqtisadi səmərəliliyinin artırılmasına xidmət edir. Bu yanaşmaların həyata keçirilməsi ölkənin iqtisadi inkişafında yeni imkanlar yaradaraq, regional və qlobal səviyyədə rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradacaq.

## Ədəbiyyat

1. Abacı, H. (2015). *KOBİ-lərin Türkiyədə inkişafi və yeri, KOBİ-lərə verilən təşviq və dəstəyin məhsul keyfiyyətinə, məhsul innovasiyasına və gəlirliliyinə təsirlərinin araşdırılması: Afyonkarahisar kiçik sənaye sahəsi nümunəsi* (Magistrlik dissertasiyası, İstanbul Arel Universiteti Sosial Elmlər İnstitutu), 278.
2. Arslan, F. (2018). Türkiyədə davamlı istehsalda mütəşəkkil sənaye zonalarının rolu: Manisa mütəşəkkil sənaye zonası (MOSB) nümunəsi. *Marmara Coğrafiya Jurnalı*, (37), 167-182.
3. Əliyeva, Z. (2024, fevral 14). "Sənaye məhəllələri regionların iqtisadi statusunu dəyişir". *Azərbaycan jurnalı*, № 33, 10.
4. Kyriazis, V., & Metaxas, T. (2023). Markusen's Typology with a "European" Twist, the Examples of the French Aerospace Valley Cluster and the Andalucia Aerospace Cluster. *World*, 4(1), 185-201.
5. Qəhrəmanov, M. T. (2019). "Azərbaycanda sənaye istehsalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi istiqamətləri", *Azərbaycan Dövlət İqtisad Universiteti*, 95.
6. Nam, J. G. (2017). A Study on the Evolutionary Process of Techno-Parks in South Korea. *Journal of the Korean association of regional geographers*, 23(2), 239-256.
7. Sarı, E. B. (2018). Evaluating the performance of organized industrial zones using data envelope analysis. *Journal of Economic Sciences*, 10(2), 17-32.
8. Vəliyev, F. A. (2018). *Azərbaycan regionlarında sənaye məhəllələrinin təşkili istiqamətləri.* Azərbaycan Dövlət İqtisad Universiteti, 85.
9. Wu, M., Liu, C., & Huang, J. (2021). The special economic zones and innovation: Evidence from China. *China Economic Quarterly International*, 1(4), 319-330.